# Qərbi Azərbaycan medianın prioritet mövzusudur



**"Xalq qəzeti" redaksiyasında Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun rəhbərliyi və elm ocağında yeni yaradılmış Qərbi Azərbaycan tarixi şöbəsinin əməkdaşları ilə keçirilən görüşdə bu qədim türk yurdunun binadan xalqımıza məxsus olduğunun sübuta yetirilməsi və dünya ictimaiyyətinə çatdırılması ilə bağlı önəmli elmi-informativ məsələlər diqqət mərkəzində oldu.**



Tarixçi alimlərə "xoş gəldiniz" deyən Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov bildirdi ki, milli tariximizin dərindən və obyektiv öyrənilməsi ilə bağlı Tarix İnstitutunun aradığı ardıcıl və sistemli tədqiqatlar müstəqillik illərində yaradıcı kollektivin önəm verdiyi mövzulardan olub. Yaranmış səmərəli əməkdaşlıq bu gün Qərbi Azərbaycan tarixinin əhatəli və dərindən öyrənilməsi istiqamətində də uğurla davam edir.

Qəzet rəhbəri daha sonra qeyd etdi ki, Qərbi Azərbaycan İcmasının doğma yurda qayıdışına media dəstəyi qazandırmaqda redaksiya tarixçi alimlərimizin səmərəli axtarışlarıdan və mötəbər mülahizələrindən çox faydalanır. Bu missiyanın gerçəkləşməsinə layiqli töhfəni artırmaq üçün qəzet ilə institutun imkanlarını yenidən nəzərdən keçirməyə, əlbir səyləri artırmağa ehtiyac duyulur.

AMEA Tarix İnstitutunun baş direktoru, professor Kərim Şükürov önəmli birgə fəaliyyətin yüksək səviyyədə davam etdirilməsi yollarının axtarışı ilə bağlı görüşün təşkilindən rəhbərlik etdiyi qurum kollektivinin məmnunluğunu söylədi. Alim bildirdi ki, Qərbi Azərbaycandan zorakı üsullarla qovulmuş soydaşlarımızın birləşdiyi Azərbaycan Qaçqınlar Cəmiyyətinin 35 ildən bəri doğma yurda qayıtmaq uğunda apardığı ictimai mübarizə Prezident İlham Əliyevin xeyir-duası ilə fəaliyyətə başlamış Qərbi Azərbaycana qayıdış ümumxalq hərəkatına çevrilməklə tarixçi alimlərin də qarşısında yeni ciddi vəzifələr qoyub.

Baş direktor məlumat verdi ki, dövlət başçısının Qərbi Azərbaycana dinc və ləyaqətli şəkildə qayıdışının elmi-taririxi təminatının yaradılması çağırışından sonra AMEA-da yaradılmış 3 xüsusi bölmədən biri də Tarix İnstitutunun Qərbi Azərbaycan şöbəsidir. Qısa müddətdə bu strukturum əməkdaşları Qərbi Azərbaycan tarixinin ayrı-ayrı dövrlər, önəmli mövzular üzrə öyrənilməsi ilə bağlı kompleks və mükəmməl araşdırmalar meydanı açıblar. Tədqiqat materiallarının geniş kütləyə çatdırılmasında "Xalq qəzeti"-nin təşəbbüskar fəaliyyəti təqdirəlayiqdir. Kərim Şükürov sonda söylədi ki, biz elmi kollektiv olaraq birgə fəaliyyəti daha məqsədyönlü və səmərəli qurmağa və ardıcıl davam etdirməyə hazırıq.

Qərbi Azərbaycan şöbəsinin müdiri, professor Cəbi Bəhramov 9 nəfərlik kollektivin qarşısında duran ilkin hədəfin zəngin elmi qaynaq toplmaqla Qərbi Azərbaycan tarixinin akademik nəşrini və bu ərazinin çoxsaylı tarixi-coğrafi xəritələrdən ibarət atlasını yaratmaq olduğunu bildirdi.

Sonra görüş dəyirmi masa şəklində şöbə əməkdaşlarının yığcam açıqlamaları ilə davam etdi. Tarixçi alimlər Elmar Məhərrəmov, Bəxtiyar Həsənov, Elçin Qarayev, Ziyad Əmrahov, Bəxtiyar Həsənov, Yaşar Bəhramov, elmi işçi Tamara Rüstəmova və laborant Nailə Məmmədova Qərbi Azərbaycanın qədim tarixinə dair arxeoloyi-antropoloji materiallardan tutmuş, Qərbi Azərbaycanın tarixinin və siyasi coğrafiyasının ən önəmli məsələlərinədək müxtəlif mövzularda yeni bilgiləri diqqətə çatdırdılar.

Dəyirmi masanın matetriallarını – söylənən elmi açıqlamaları, bildirilən dəyərli mülahizələri, qaldırılan aktual məsələləri qəzetimizin növbəti saylarında oxucularımıza çatdıracağıq.

***Tahir AYDINOĞLU,***
***"Xalq qəzeti"***